# YARADICI MUSİQİÇİ

Oqtay Abasquliyevin bir pianoçu kimi formalaşmasında onun insani keyfiyyətləri böyük rol oynamışdır. İntellektin aparıcı rolu, möhkəm iradə, əla zövq, təbii qanunauyğunluqların üzə çıxarılmasına və dərk olunmasına olan daimi tələbat, hər cür təzahürün, hadisənin məğzinə varmaq bacarığı ifaçının təfəkkürünə xas olan yaradıcı təbiətdən xəbər verir.

Pianoçu – şəxsiyyət kimi onun simasını müəyyənləşdirən amillər, xarakterinə mənsub olan cizgilər və musiqi istedadı hər şeydən əvvəl, ciddi zövq, yüksək dərəcədə məqsədyönümlülükdə, hər bir təzahürün kökünə baxmaq, dərinliyinə varmaq bacarığında, məntiqi başlanğıcda özünü büruzə verir. Lakin bu emosional cəhətdən boşluq demək deyil, sadəcə olaraq ifaçının özünə, öz yaradıcılığına rasional yanaşmasıdır. Abasquliyevin interpretasiyalarında bu özünü ifadə imkanlarının lakonikliyində, pianizmin qənaətcilliyində göstərir. Onun pedaqoji fəaliyyətini xarakterizə edən ifaçılıq manerasında, dəstxəttində xüsusilə diqqəti cəlb edən cəhət ifadə genişliyinin bədii təfəkkür bazası ilə həmahəngliyidir.

M.Brennerin tələbəsi kimi o, ifaçılıq mədəniyyətinin klassik istiqamətinə sadiqdir. Onun geniş repertuarının əsasını Bax, Bethoven, Şopen, Debüssi, Raxmaninovun əsərləri təşkil edir. Lakin onun ifaçı kimi ən böyük nailiyyətləri Ferens Listin yaradıcılığı ilə bağlıdır. Bu mənada bəstəkarın si minor sonatasını, «Po proçteniö Dante» sonatasını, İspan rapsodiyasını, Mefisto-vals və fortepiano və orkestr üçün yazılmış birinci konsertini misal göstərmək olar. Qeyd etmək lazımdır ki, Listin musiqisi ifaçının 70-ci illərdə verdiyi «monoqrafik» konsertlərinin əsasını təşkil etdi.

Professor Oqtay Abasquliyevin bədii yetkinliyi onun pedaqoji fəaliyyətində özünün daha dərin və hərtərəfli ifadəsini tapmışdır. Respublikanın xalq artisti Rauf Atakişiyev ifaçı haqda yazdığı rəyində qeyd etmişdir ki, «Musiqi pedaqogikasının iki görkəmli xadimi professor M.R.Brenner və Y.İ.Milşteyndən təhsil alan O.Abasquliyev öz böyük təcrübə, professionalizm və geniş dünyagörüşünü bacarıqlı şəkildə gənc kadrların hazırlanmasına sərf edir. Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında işlədiyi müddətdə o, həm respublikamızda, həm də onun hüdudlarından kənarda müvəffəqiyyətlə fəaliyyət göstərən professional hazırlıqlı pianoçular ordusunu tərbiyə etmişdir.» Pianoçunun musiqili-pedaqoji fəaliyyətini respublika xalq artisti, görkəmli bəstəkar Cövdət Hacıyev də yüksək qiymətləndirmişdir: «O. Abasquliyev – öz professional səviyyəsinin yüksəlməsi sahəsində yorulmadan çalışan böyük erudisiyaya malik ciddi musiqiçi və pedaqoqdur. Onun sinfinin yetirmələri əla təlim, gözəl ifa tərzi, ifa etdikləri əsərlərin üslub və ideyasının anlamında müəyyən məktəb nümayiş etdirirlər.»

Oqtay Abasquliyevin tədris üslubuna xas olan təcrübəlilik, professionallıq və nəzakət onun yetirmələrinin çoxsaylı konsertlərində bariz şəkildə gözə çarpır və hər dəfə dinləyicilərin böyük marağına səbəb olur. Onun pedaqoji fəaliyyətinin



***Professor Oqtay Abasquliyevin yaradıcılıq yolu – Azərbaycan fortepiano mədəniyyəti tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Azərbaycan xalq artisti, görkəmli pianoçu-pedaqoq, professor M.Brennerin və Moskva konservatoriyasının professoru Y.Milşteynin gözəl ənənələrini davam etdirən sənətkar, özünün yüksək professionallığı ilə fərqlənən ifaçılıq və pedaqoji fəaliyyətində bu ənənələri daim inkişaf etdirməyə çalışmışdır.***

ən böyük göstəricisi yetirmələrinin müxtəlif müsabiqələrdə, o cümlədən, beynəlxalq müsabiqələrdə qazandığı nailiyyətlərdir. Oqtay Abasquliyevin adı beynəlxalq musabiqələr laureatları hazırlayan azərbaycanlı ifaçı-müəllimlərin çox lakonik olan siyahısını (M.Brenner, R.Atakişiyev, F.Bədəlbəyli) bəzəyir. Axırıncı onillikdə O.Abasquliyevin sinfində dörd tələbə laureat adı qazanmışdır. Gülnarə Səfərova (Türkmənistan, 1995), Züleyxa Bayramova (Türkiyə, 2004), Ayan Salahova (Rusiya, 2005) və Nigar Məcidova (Ukrayna, 2005).

O.Abasquliyevin pedaqoji «strategiyası»nın ən qiymətli cəhəti- «snayper» dəqiqliyilə qüvvələrin sərf olunması mövqelərinin dəqiq müəyyən olunması, təhsil alan tələbələrin obyektiv yaradıcılıq tələblərini onların potensial imkan və meyllərilə uzlaşdırmaq bacarığındadır. Oqtay müəllimin yaradıcılıq şəxsiyyətinə məxsus bu cəhətlər onun dəyərli tələbələri-Bakı Musiqi Akademiyasının dosenti, pedaqoji elmlər namizədi Gülnarə Səfərova və fortepiano fakültəsinin dekanı vəzifəsində öz müəllimini əvəz edən Nərminə Quliyeva tərəfindən mənimsənilmişdir.

«Müasirliyin nəbzini tutmaq», fortepiano ədəbiyyatının yeniliklərinə meyl etmək, tədris repertuarını inadlı şəkildə yeniləşdirmək və genişləndirmək təşəbbüsü də onun pedaqoji fəaliyyətinə xas olan daha bir mühüm cəhətdir. Xüsusi diqqət, əlbəttə ki, müxtəlif nəslə mənsub Azərbaycan bəstəkarlarının əsərlərinə yetirilir. Xəyyam Mirzəzadənin «Ağ və qaralar», Məmməd Quliyevin «Fortepiano üçün albom» prelüdləri, Əziz Əzizovun Fida və sonatinası, İsmayıl Hacıbəyovun pyesləri və s.

Pianoçunun fəaliyyət dairəsi olduqca geniş əhatəlidir; o yalnız yaradıcılıq fəaliyyətilə kifayətlənmir. Uzun müddət - 30 il – O.Abasquliyev Bakı Musiqi Akademiyasında fortepiano fakültəsinin rəhbəri olmuşdur. Onun bu fəaliyyəti bütövlükdə milli fortepiano mədəniyyətinin səviyyəsini müəyyən edir. O.Abasquliyevin rəhbərlik etdiyi fakültə, BMA-nın bütün tələbə kontingentinin dərs aldığı ixtisas və ümumi fortepiano kafedraları musiqi professionalizminə yiyələnmək yolunda böyük yaradıcılıq nailiyyətləri əldə ediblər. Bu, əlbəttə ki, gənc mütəxəssislərin praktiki tədrisinə olan xüsusi qayğının nəticəsidir.

Çoxcəhətli yaradıcılıq fəaliyyətində qazandığı nailiyyətlərin qanunauyğun nəticəsi professor O.Abasquliyevin ölkəmizin ən aparıcı ali təhsil ocağında tədris hissəsi üzrə prorektor və ixtisas fortepiano kafedrasının müdiri təyin olunması oldu. Əminliklə qeyd etməliyik ki, yaradıcı – ifaçının böyük professionallığı onun gələcək işlərində də öz əksini tapacaqdır.

*Tərlan Seyidov,*
***Bakı musiqi akdemiyası fortepiano kafedrasının professoru***